Yaddaşlarda yaşayanlar

**...Muğam üstündə köklənmiş marağım məni bu dəfə "Simayi Şəms" dünyasına aparmışdı. O muğamı eşitmək istəyirdim. Onu da xatırladım ki, bu ritmik muğamı çox sənətkarımız oxusa da, kişi xanəndələrdən Arif Babayevin, xanım sənətkarlarımızdan isə Rəsmiyyə Sadıqovanın ifasını daha çox sevmişəm.**

# "Simayi Şəms"lə sevdiyim sənətkar

Qərəz, internetdən "Simayi Şəms" muğamını seçmək istədim. Orada məni olduqca məmnun edən bir faktla rastlaşdım: "Gələndə" mahnısı. Oxuyur Rəsmiyyə Sadıqova. Xalq artisti, professor Vamiq Məmmədəliyevin videotekasından". Eşq olsun ustad tarzənimizə ki, belə bir xəzinəni dinləyicilərin və tamaşaçıların ixtiyarına verib.

Amma mən "Simayi Şəms"i arzulayırdım və tapdım. Həm də necə? Rəhmətlik Rəsmiyyə xanımın Masallıda – doğma el-obasında oxuduğu "Simayi Şəms". Aman Allah, bu nə qismət imiş?

...Nə isə. 1994-cü il idi. Onda hələ dövlət radiosunda işləyirdim. Bəstəkar Şəfiqə Axundova mənim "Anama məktub" şeirimə musiqi yazmışdı. Nəyə görəsə onun iş otağına, televiziyanın Uşaq Proqramları redaksiyasına getmişdim. Otaqda başqa bir xanım da var idi. Şəfiqə xanım məndən soruşdu ki, İttifaq, Rəsmiyyə xanımı tanıyırsanmı? Opera solistimizdir.

Dedim, mən onun "Simayi Şəms"ini opera solistliyindən daha çox sevirəm. Şəfiqə Axundova elə bildi ki, Rəsmiyyə xanım mənim həmin sözlərimdən inciyər. Ona görə də dərhal etiraz etdi:

– Yox, yox, Rəsmiyyə xanım operalarda da böyük uğur qazanmış sənətkarımızdır.

Mən səhv elədiyimi başa düşdüm və susdum. Şəfiqə xanım əlavə elədi ki, Rəsmiyyə Sadıqova Masallıdan qayıdıb. Onu öz verilişinə dəvət edə bilərsən.

Soruşdum ki, Masallıda "Simayi Şəms" oxudunuzmu"? Dedi ki, əlbəttə.

Ertəsi gün studiyamıza gəldi. Xeyli söhbət etdik və söhbətimizi lentə yazaraq, veriliş hazırladım. Opera və Balet teatrındakı fəaliyyətindən xeyli danışdı. Çox təəssüf ki, sədr müavini Mövlud Süleymanlı xanəndə və ya müğənnilərin studiyada canlı ifasına və fonotekadan kənarda olan lent yazılarının efirə verilməsini qadağan eləmişdi. Ona görə də öz verilişimdə radionun fonotekasındakı "Simayi Şəms"i verməli oldum.



Rəsmiyyə xanım studiyadan çıxıb gedəndə bir də geri qayıtdı:

– Oğlum, bir xahişim var.

– Buyurun.

– Son zamanlar televiziya və radioda mənim familiyam bir neçə dəfə Sadıxova kimi səsləndirilib. Siz dəqiq deyin – Sadıqova.

Söz verdim və efirdə dedim ki, 40 il opera və balet teatrının solisti olmuş, 100 dəfə Əsli, Leyli, Şahsənəm, Telli kimi baş rollarda oynamış, eyni zamanda, "Simayi Şəms" ritmik muğamının ifasına özünəməxsus möhür vurmuş Rəsmiyyə Sadıqova Masallı şəhərindən qayıtmışdır. Onunla söhbətimizi təqdim edirik...

*İttifaq MİRZƏBƏYLİ*